# Çağdaş “Turan sevdalısı”

**Türk dünyasında araşdırmaları ilə məşhur olan folklorşünas, publisist Əli Şamilin yaradıcılığına həsr edilən “Turan sevdalısı” məqalələr toplusu soydaşımızın ədəbiyyat tarixi, türkologiya və publisistika ilə bağlı dəyərli tədqiqatlarına işıq tutan yeni bir təqdimatdır.**

Əli Şamil elmi-publisistik yaradıcılığı ilə yalnız Azərbaycanda deyil, bütün Türk dünyasında tanınan alimlərdəndir. O, Türk xalqlarının yaşadığı əraziləri qarış-qarış gəzib, zəngin materiallar toplayıb, bu da onun tədqiqatlarının məzmununa ciddi təsir göstərib. Onun “Türkçülüyün qurbanları”, “Quzey Kıbrıs”, “Uyğur, qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı”, “Colan türkmanları”, “Qaşqaylar və onların folkloru”, “Parçalanmış Türküstanı gəzərkən”, “Qırım sevgisi” adlı araşdırmalarından da Əli Şamil yaradıcılığının necə geniş bir çoğrafiyanı əhatı etdiyi görünür.

Kitaba “Turan yolçusu” adlı ön söz yazan filologiya elmləri doktoru, professor Vaqif Sultanlı Əli Şamilin yaradıcılığını belə qiymətləndirir: “Tarixin və taleyin axarında dünyaya səpələnmiş türk toplumunun yurd saldığı elə bir yer yoxdur ki, Əli Şamil ora baş çəkməsin. Getdiyi, gəzdiyi, qonaq olduğu yerləri Böyük Vətənin bir hücrəsi kimi sevdiyi, bağlandığı və tanıtdığından araşdırmaları elmi yönü ilə yanaşı, milli mahiyyət daşıyır. Bu səpkili yazılarının ən mühüm özəlliyi isə uzun illər yad güclərin əlilə ayrı salınmış, müxtəlif adlarla parçalanmış, bir-birinə qarşı qoyulmuş Türk xalqlarını Türk Dünyasının ayrılmaz bir parçası kimi təqdim etməyə çalışmasıdır”.




Azərnəşrdə işıq üzü görən kitabın elmi redaktoru və tərtibçisi filologiya elmləri doktoru, professor Almaz Həsənqızı, rəyçiləri filologiya elmləri doktoru, professor Bədirxan Əhmədli və filologiya üzrə fəlsəfə doktoru, dosent Süreyya Sultanovadır. Kitaba Əli Şamilin yaradıcılığı ilə bağlı aparılan tədqiqatlar və xatirələr daxil edilmişdir.

***XQ***

Xalq qəzeti .- 2024.- 12 yanvar, № 005.- S.10.